**2026-2029-cu illər üzrə**

**“İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC-nin**

# DİVİDEND SİYASƏTİ

**2026-cı il**

## 1. Ümumi müddəalar

1.1 "İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ" QSC-nin (bundan sonra – Cəmiyyət) dividend siyasəti dividendlərin elan edilməsi və ödənilməsi prinsiplərini, bu prosesin həyata keçirilməsi qaydalarını, mövcud məhdudiyyətləri, eləcə də bununla bağlı digər mühüm məsələləri müəyyən edir.

1.2 Siyasət Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ xarakterli aktları və Cəmiyyətin Nizamnaməsi əsasında hazırlanmışdır.

1.3 Siyasət Cəmiyyətin korporativ idarəetmə çərçivəsinin tərkib hissəsidir və dividend ödənişləri zamanı Cəmiyyət ilə səhmdarların maraqlarının balanslaşdırılmasına, habelə onların hüquqlarının qorunmasına yönəldilmişdir.

1.4 Siyasətin əsas məqsədi Cəmiyyətin maliyyə dayanıqlığını və inkişaf ehtiyaclarını nəzərə almaqla səhmdarlar üçün uzunmüddətli dəyərin yaradılması və dividend ödənişləri üzrə şəffaf yanaşmanın təmin edilməsidir.

## 2. Əsas anlayışlar

2.1 Bu Siyasətin məqsədləri üçün aşağıdakı termin və anlayışlardan istifadə olunmuşdur:

2.1.1 "Dividend" – Cəmiyyətin səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi, o cümlədən hüquqi şəxs ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş (Cəmiyyətin ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir (bölüşdürülməmiş mənfəət hesabına formalaşan əmlak istisna olmaqla), həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri (bölüşdürülməmiş mənfəət hesabına səhmlərin (payların) artan nominal dəyəri istisna olmaqla) hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır);

2.1.2 "Bölüşdürülməmiş mənfəət" – Cəmiyyətin maliyyə hesabatlarına əsasən müəyyən edilmiş, əvvəlki və cari hesabat dövrlərində əldə olunmuş, qanunvericiliklə nəzərdə tutulmuş ayırmalar və öhdəliklər yerinə yetirildikdən sonra səhmdarlar arasında bölüşdürülməmiş və Cəmiyyətin sərəncamında qalan mənfəət;

2.1.3 "Dividend siyasəti" – Cəmiyyətin xalis mənfəətinin bölüşdürülməsi və dividend ödənişlərinin həyata keçirilməsi prinsiplərini müəyyən edən daxili normativ sənəd;

2.1.4 "Səhmdar(lar)" – Cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin qanunvericilik ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxs(lər)dir;

2.1.5 "Xalis mənfəət" – Cəmiyyətin maliyyə hesabatlarına əsasən müəyyən edilən və bütün vergilər və digər məcburi ödənişlər çıxıldıqdan sonra Cəmiyyətin sərəncamında qalan gəlir;

2.1.6 "Dividend almaq hüququ olan şəxslər" – qanunvericiliklə müəyyən edilmiş qaydada dividend almaq hüququna malik olan səhmdarlar;

2.1.7 "Dividendlərin ödənilməsi haqqında qərar" – dividend almaq hüququ olan şəxslərə dividendlərin ödənişini həyata keçirmək haqqında Səhmdarların Ümumi Yığıncağının qərarıdır;

2.1.8 "Dividend ödənişi" – dividend almaq hüququ olan şəxslərin bank hesablarına müvafiq pul məbləğinin köçürülməsidir;

2.1.9 "Dividendlərin ödənilmə müddəti" – dividendlərin ödənilməsi üzrə öhdəliyin icra günü və ya dividend ödənişlərinin yerinə yetirilməli olduğu müddət (dövr). Dividendlərin ödənilməsi öhdəliyi həmin gün və ya həmin dövr ərzində yerinə yetirilməlidir;

2.1.10 "Tələb olunmayan dividendlər" – dividend almaq hüququ olan şəxslərin bank hesabı rekvizitlərinin Cəmiyyətə təqdim olunmaması və ya bu kimi digər səbəblərdən Cəmiyyət tərəfindən ödənilə bilməyən dividendlərdir.

## 3. Siyasətin əsas prinsipləri

3.1 Siyasətin əsas prinsipləri aşağıdakılardır:

3.1.1 "Şəffaflıq" – dividend siyasətinin reallaşdırılmasında, o cümlədən, dividendlərin miqdarı və ödənilməsi qərarının qəbulu üçün məlumatın açıqlanması;

3.1.2 "Əsaslılıq" – dividendlərin məbləği və ödənilməsi barədə qərarın yalnız Cəmiyyətin müsbət maliyyə nəticələri və inkişaf planları nəzərə alınmaqla qəbul edilməsi;

3.1.3 "Ədalətlilik" – dividendlərin verilməsi, məbləği və verilmə qaydaları haqda məlumatın alınması üçün bütün səhmdarların bərabər hüquqla təmin edilməsi;

3.1.4 "Ardıcıllıq" – dividend siyasətinin prosedur və prinsiplərinin mütləq qaydada icrası;

3.1.5 "Sabitlik" – dividendlərin məbləğinin kəskin dəyişikliklərə yol verilmədən, nisbətən sabit və proqnozlaşdırıla bilən əsasda ödənilməsi;

3.1.6 "Dayanıqlı inkişaf" – Dividend siyasətinin prosedur və prinsiplərinin mütləq qaydada icrası, siyasətin mütəmadi yenilənməsi və Cəmiyyətin strateji məqsədlərinin dəyişməsi halında ona yenidən baxılması, eləcə də Cəmiyyətin investisiya cəlbediciliyinin artırılması, kapitallaşdırılması və gəlirliliyinin yüksəldilməsi zərurəti.

## 4. Dividendlərin həcminin hesablanması qaydası

4.1 Dividend manatla, hər bir səhm üçün hesablanır.

4.2 Hər bir səhmə düşən dividendin həcmini hesablamaq üçün dividendlərin ödənilməsinə ayrılan xalis mənfəət adi və tam ödənilmiş səhmlərin faktiki sayına bölünür. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

4.3 Dividendin həcmi maliyyə ilinin sonu mənfəətin həcminə əsasən müəyyən edilir. Əgər səhmdarlara il ərzində aralıq dividendlər ödənilibsə, onda bu rəqəm səhmdarların ümumi yığıncağının qərarına əsasən maliyyə ilinin nəticələrinə əsasən elan edilmiş dividend məbləğindən çıxılır.

4.4 Səhmdarların ümumi yığıncağının qərarına əsasən illik dividendlərin ödənilməsi məqsədilə xalis mənfəətdən hər hansı bir faiz müəyyən edilə bilər.

## 5. Dividendlərin ödənilməsi barədə qərar

5.1 Cəmiyyət tərəfindən dividendlərin elan olunması və ödənilməsi barədə qərar Cəmiyyətin Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul olunur.

5.2 Dividendlərin elan olunması və ödənilməsi barədə qərar qəbul edilərkən onların miqdarı və hər bir səhm növü üzrə ödənişlərin aparılması qaydası və digər müvafiq şərtlər müəyyən edilməlidir.

5.3 Dividendlərin elan olunması və ödənilməsi barədə Səhmdarların Ümumi Yığıncağının qərarında aşağıdakılar əks olunmalıdır:

5.3.1 Barəsində dividendlərin ödənilməsi qərarı qəbul edilən səhmlərin kateqoriyası və növü;

5.3.2 Dividendlərin ödənilməsi müddəti;

Bakı şəhəri, Xətai rayonu, Fəzail Bayramov 28F, INVEST-AZ Plaza
elaqe@investaz.az *1234 | (012) 488 05 88 AZ

5.3.3 Dividendlərin ödənilməsi forması.

5.4 Dividendlərin ödənilməsi haqqında Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilən qərar, həmçinin, göstərilən məsələ ilə bağlı səsvermənin nəticələri Azərbaycan Respublikasının qanunvericiliyi və Cəmiyyətin Nizamnaməsi ilə müəyyən edilmiş qaydada səhmdarların nəzərlərinə çatdırılır.

5.5 Cəmiyyətin dividendlərin ödənilməsi ilə bağlı öhdəlikləri dividendlərin ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.

## 6. Dividendlərin ödənilməsi şərtləri

6.1 Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyin tələblərinə uyğun olaraq və Səhmdarların Ümumi Yığıncağının qərarı əsasında dividendlərin ödənilməsini həyata keçirir.

6.2 Mənfəəti bölüşdürülməsi nəzərdə tutulan maliyyə ilində səhmdar olan şəxslər dividend almaq hüququna malikdir.

6.3 Cəmiyyətin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında Cəmiyyətin Səhmdarların Ümumi Yığıncağı qərarın qəbul edildiyi gündən etibarən yaranır.

6.4 Dividendlər vergi və digər məcburi tutulmalar daxil olmaqla elan edilir. Dividendlərdən vergilərin və digər məcburi tutulmaların aparılması ödəniş tarixində qüvvədə olan qanunvericiliyə uyğun həyata keçirilir.

6.5 Dividendlərin ödənilməsi haqqında qərar Səhmdarların Ümumi Yığıncağının müvafiq maliyyə dövrünün kənar audit tərəfindən yoxlanılmış nəticələrinə həsr olunan ilk növbəti iclasında qəbul edilir. Dividendlərin ödənilməsinə dair Səhmdarların Ümumi Yığıncağının qərarı olmadan Cəmiyyət dividendləri ödəyə, səhmdarlar isə onların ödənilməsini tələb edə bilməz.

6.6 Əvvəlki maliyyə illəri üzrə bölüşdürülməmiş mənfəət hesabına dividend ödənilməsi barədə qərar Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilir.

6.7 Dividendlərin ödənilməsi tarixi, forması, yeri və proseduru haqqında məlumat səhmdarlara göndərilir.

6.8 Hər bir səhmdar dividendin hesablanması, vergitutma qaydası, ödəniş şərtləri və dividend ödənişi ilə bağlı digər məsələlər üzrə Cəmiyyətə müraciət etmək hüququna malikdir. Hər bir səhmdar dividendin hesablanması, vergitutma qaydası, ödəniş şərtləri və dividend ödənişi ilə bağlı digər məsələlər üzrə Cəmiyyətə müraciət etmək hüququna malikdir.

6.9 Cəmiyyət daxil olmuş müraciətə 3 (üç) iş günü müddətində cavab verməlidir.

6.10 Dividend ödənişləri nağdsız qaydada həyata keçirilir.

## 7. Dividendlərin ödənilməsi müddətləri

7.1 Elan edilmiş dividendlər Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq 30 (otuz) gün ərzində səhmdarlara ödənilməlidir.

7.2 Səhmdarların tərkibinin dəyişməsi dividendlərin ödənilməsi barədə qərarın bu Məcəllə ilə müəyyən edilmiş müddətdə və qaydada icra olunmasına təsir etmir.

7.3 Cəmiyyət dividendlərin ödənilməsi üzrə öhdəliyini dividendlərin ödənilmə müddəti ərzində istənilən gün yerinə yetirmək hüququna malikdir.

7.4 Cəmiyyət hesablanmış dividendlərin ödənilməsi müddətləri üzrə ayrı-ayrı səhmdarlara hər hansı bir üstünlük vermir.

## 8. Dividendlərin ödənilməsinə məhdudiyyətlər

8.1 Dividendlərin elan edilməsi, onların ödənilməsi haqqında qərarın qəbul edilməsi, habelə dividendlərin ödənilməsi zamanı Cəmiyyət Azərbaycan Respublikasının normativ hüquqi və normativ xarakterli aktlarında müəyyən edilmiş məhdudiyyətləri nəzərə alır.

8.2 Geri alınmış səhmlər üzrə dividendlər hesablanmır və ödənilmir.

8.3 Cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, Cəmiyyət dividendləri elan edə və ödəyə bilməz. Cəmiyyət yalnız dividendlərin ödənilməsinə məhdudiyyətlər aradan qaldırıldıqdan sonra müəyyən müddət üzrə xalis mənfəətdən dividendləri ödəyə bilər.

## 9. Yekun müddəalar

9.1 Bu Siyasət təsdiq edildiyi gündən qüvvəyə minir.

9.2 Bu Siyasətə əlavə və dəyişikliklər yalnız Səhmdarların Ümumi Yığıncağının qərarı ilə edilə bilər.

9.3 Azərbaycan Respublikasının Qanunvericiliyi, Cəmiyyətin Nizamnaməsi, Cəmiyyətin nəzarət və idarəetmə orqanlarının qəbul etdiyi daxili normativ sənədlər ilə bu Siyasətin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.

9.4 Azərbaycan Respublikasının qanunvericiliyinə dəyişiklik edilməsi nəticəsində bu Siyasətin hər hansı müddəası ilə qanunvericilik arasında ziddiyyət yaranarsa, həmin müddəa qüvvədən düşmüş hesab edilir.